# Səməd Vurğun Poeziya evi

Kazım KAZIMLI

**Azərbaycan ədəbiyyatının inkişafında müstəsna xidmətlər göstərmiş, görkəmli şair və dramaturq, mütəfəkkir alim, filosof, ictimai-siyasi xadim, Azərbaycan Milli Elmlər Akademiyasının ilk akademiki, iki dəfə Dövlət Mükafatı laureatı Səməd Vurğunun yaradıcılığı XX əsr Azərbaycan ədəbiyyatı tarixinin ən parlaq və təkrarsız səhifələrindən birini təşkil edir.**

**Müasir Azərbaycan dilinin və ədəbiyyatının zənginləşməsində böyük rol oynamış sənətkarın bədii irsi mədəniyyətimizin inkişafında yeni mərhələ olmuşdur.**

Xalq şairi Səməd Vurğunun vəfatından 55 il keçib, ancaq xalq onu öz sağlığında hansı məhəbbətlə sevibsə, bu gün də eyni məhəbbətlə sevir. Səməd Vurğun gözəl lirikası ilə, fəlsəfi şeirləri ilə Azərbaycan dilini və şeirimizin poetikasını inkişaf etdirib.

Ulu öndərimiz Heydər Əliyev Səməd Vurğunu qəlbən sevir, onun yaradıcılığını yüksək qiymətləndirir, xatirəsini dövlət səviyyəsində əbədiləşdirmək üçün əlindən gələni əsirgəmirdi. Ümummilli liderimiz Heydər Əliyevin sözləri yada düşür:" Səməd Vurğun millətimizin başını uca edən şəxsiyyətlərdən biridir".

"Səməd Vurğun böyük şairdir. Şərq aləmində şair həmişə ən yüksək hörmətə layiq olubdur. Səməd Vurğun isə öz dövrünün şairlərinin şairi olubdur".

Yuxarıda qeyd etdiyim kimi, ulu öndər Heydər Əliyev həmişə Səməd Vurğun yaradıcılığına böyük önəm vermişdir. O, Səməd Vurğunun məşhur "Azərbaycan" şeirini çox sevir, yeri gəldikcə, ona müraciət edirdi. 1976-cı ildə şairin anadan olmasının 70 illik yubileyi münasibətilə Qazax rayonunun Yuxarı Salahlı kəndində Səməd Vurğun Poeziya evi də Heydər Əliyevin təşəbbüsü ilə yaradılmış və o, 1979-cu ilin sentyabrında onun açılışında şəxsən özü iştirak etmişdir.

Səməd Vurğun irsinə dövlət səviyyəsində hörmət, onun yaradıcılığına verilən qiymət bu gün də davam edir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2004-cü ildə Qazax rayonuna səfəri zamanı Poeziya evində olmuş, burada əsaslı təmir və yenidənqurma işlərinin aparılması barədə rayon rəhbərliyinə konkret tapşırıqlar vermişdi. 2005-ci ildə isə Azərbaycan Prezidenti Səməd Vurğunun 100 illik yubileyinin də dövlət səviyyəsində keçirilməsi haqqında sərəncam imzaladı və həmin sərəncama əsasən böyük şairin yubileyi onun özünün adına layiq təntənəli şəkildə bayram edildi.

Ötən dövrdə görülən işlər nəticəsində Poeziya evi yeni görkəm aldı. Buradakı eksponatların sayı artmış, yeniləri də əlavə olunmuşdur. Səməd Vurğunun Bakıdakı ev-muzeyi buraya şairin köynəyini, ov və yazı ləvazimatını hədiyyə etmişdir. Son vaxtlar Poeziya evinin yerləşdiyi ərazi genişləndirilmiş, burada yaşıllıq zolağı salınmışdır.

Azərbaycan Prezidenti İlham Əliyev 2011-ci ilin fevralında Qazax rayonuna səfəri zamanı Səməd Vurğunun Poeziya evində görülən təmir-tikinti, abadlıq işlərindən razı qaldığını bildirmişdir. Respublika Prezidenti İlham Əliyev öz çıxışında çox haqlı olaraq qeyd etmişdir ki, "Səməd Vurğunun xatirəsi həmişə Azərbaycan xalqının qəlbində yaşayır. O, böyük sənətkar, böyük şair, böyük vətəndaş olmuşdur. Əlbəttə, bu Poeziya evini belə gözəl vəziyyətə gətirib çatdırmağımız, hesab edirəm ki, hər bir Azərbaycan vətəndaşının qəlbində əks-səda doğuracaqdır".

Bir sözlə, Poeziya evi həmişə Səməd Vurğunun xatirəsinə bir ehtiram ünvanı olacaq, söz- sənət vurğunlarının daimi görüş yerinə çevriləcəkdir.

Səməd Vurğun xoşbəxt şairdir. O Novruz bayramı günü- 21 Mart 1906-cı ildə anadan olmuşdur. Səməd Vurğunun anadan olduğu gün- 21 Mart Dünya Poeziya günü kimi qeyd olunur. Bu da dahi şairin xoşbəxtliyidir.

**Xalq şairi, sənət peyğəmbərimiz Səməd Vurğunun anadan olmasının 105 illik yubileyi ilə əlaqədar son vaxtlar Poeziya evinə gəlib-gedənlərin sayı artır. Adi məktəblidən tutmuş elm, maarif, mədəniyyət, ədəbiyyat, incəsənət xadimlərinədək Səməd Vurğunun Poeziya evini ziyarətə gəlirlər və buradan xoş təəssüratla ayrılırlar...**